# Bəhruz Kəngərli şəxsiyyət və bədii obraz kimi

**Yadigar Əsgərova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yadigar2012@gmail.com

**Annotasiya**. Məqalə Azərbaycan təsviri sənətində yeni izlər açan ilk peşəkar rəssam Bəhruz Kəngərlinin ömür yolunun elmi və bədii ədəbiyyatdakı təsvirinə həsr edilmişdir.
Tofiq Mahmudun "Uzaqda ucalan dağlar" (1989) əsəri ədəbiyyatımızda rəssamın həyat və yaradıcılığına həsr edilmiş ilk və yeganə bioqrafik romandır. Arxivlərin açıldığı, tarixi həqiqətlərin üzə çıxdığı dövrdə Tofiq Mahmud sənədlər, xatirələr, məqalə və elmi işlər, erməni təcavüzü haqqında həqiqəti çatdıran yazılara istinad edərək, Bəhruz Kəngərlinin reallıqdan uzaq olmayan bədii obrazını təqdim etmişdir.
Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyev və Naxçıvan Müəllimlər İnstitutunun müəllimi sənətşünas Nizami Alıyev müəllifi olduqları "Bəhruz Kəngərlinin taleyi" (2017) kitab-albomunda rəssamın çəkdiyi bütün əsərlərin kataloqunu tərtib edərək elmi tədqiqatlar, sənədlər, xatirələr əsasında onun ömür səhifələrindən ensiklopedik dəqiqliklə bəhs etmişlər. Böyük zəhmət və axtarışlar sayəsində ərsəyə gələn albom da Bəhruz bəy Kəngərlinin ömür yoluna sənədlərlə, rəsmlərlə, əyani sübutlarla işıq salınaraq, rəssam haqqında ətraflı məlumat verilmişdir.
**Açar sözlər**: Bəhruz Kəngərli, rəssam, Naxçıvan, qaçqınlar, obraz

**Məqalə tarixçəsi:** göndərilib – 01.07.2022; qəbul edilib – 15.07.2022

# Bahruz Kengerli – as a personality and a literary character

**Yadigar Askerova**
Doctor of Philosophi in philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yadigar2012@gmail.com

**Abstract.** The article is devoted to the first professional artist, who discovered new traces in the fine arts of Azerbaijan, Bahruz Kangarly in scientific and fiction literature. "Mountains rising in the distance" by Tofig Mahmud (1989) is the first and only biographical novel dedicated to the life and work of the artist. At a time when the archives were opened and historical truths were revealed, Tofig Mahmud presented an artistic image of Bahruz Kangarly, not far from reality, referring to documents, memoirs, articles and scientific works, articles about the Armenian aggression. A catalog of all the works drawn by the artist in the book-album "The Fate of Bahruz Kangarly" (2017) authored by the honored worker of arts, Ph.D. in art history Ziyadkhan Aliyev and the teacher of the Nakhchivan Pedagogical Institute Nizami Aliyev was compiled on the basis of scientific research, documents and memoirs. The album, created thanks to great efforts and searches, was able to convey to the people detailed information about the artist, highlighting the life of Bahruz bey Kangarly with documents, drawings and visual evidence.
**Keywords:** Bahruz Kangarly, artist, Nakhichivan, refugees, image

**Article history:** received – 01.07.2022; accepted − 15.07.2022

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində istedadı ilə parlayan rəssam Bəhruz Kəngərli, bəstəkar Asəf Zeynallı, aktyor Ülvi Rəcəb, şair Mikayıl Müşfiq kimi nakam taleli gənc sənət fədailəri milli mədəniyyət tariximizdə silinməz iz qoya bilmişlər.

Azərbaycanın qədim Naxçıvan diyarında yaşayıb-yaratmış peşəkar rəssam Bəhruz Kəngərli özünəməxsus üslubu, mənzərə, portret janrında çəkdiyi xeyli sayda rəsmləri ilə həmişə diqqətdə olmuşdur. Yaradıcılığının ictimai məzmunu, sənətkarlığı, əsərlərinin az bir qismi ilə incəsənət tarixində layiqli yer tuta bilməsi onu ədəbi əsərlərin qəhrəmanına çevirmiş, haqqında şeirlər, dram əsəri və roman yazılmışdır. Onlarla rəssam müxtəlif tərtibatda portretini cızmaqla Bəhruza olan ehtiramlarını ifadə etmişlər. İslam Səfərlinin “Naxçıvan yadigarı”, Elçin İsgəndərzadənin “Rəssam və mələk”, Zaur Vedilinin “Həmişəyaşardı Bəhruz”, Tofiq Mahmudun “Bəhruzun gözləri” şeirləri, Adil Babayevin “Yarımçıq şəkil” pyesi, Tofiq Mahmudun “Uzaqda ucalan dağlar” romanı rəssam Bəhruz Kəngərliyə həsr olunmuşdur.

## Əsas hissə / *Main Part*

İlk professional rəssamımız Bəhruz Kəngərli (1892-1922) istedadı, zəhmətsevərliyi, məhsuldarlığı sayəsində zəngin irs qoyub getmiş, əsərləri muzey və sərgilərin ən seçmə nümunələrinə çevrilmişdir. Lakin sovet dövründə onun haqqında yazılan bütün kitablar, broşuralar rəssamın həyat və yaradıcılığını tam əhatə edə bilməmişdir.

Azərbaycan Milli İncəsənət Muzeyinin XX əsrə aid bölməsində Bəhruz Kəngərlinin əsərlərinə xüsusi yer ayrılmışdır. Bu guşədə rəssamın mənzərə şəkilləri və “Qaçqınlar” silsiləsinə aid olduqca nimdaş geyimdə, gözlərindən qorxu, kədər yağan qaçqın uşaq rəsmləri hamının diqqətini cəlb edirdi. Əsrin əvvəllərində ermənilərin xalqımıza qarşı açıq təcavüzünü gizlədən, məcburən onları dost kimi qələmə verən sovet rejimi məlum gerçəklikləri, həqiqəti ört-basdır edirdi. Ona görə də sənət haqqında məqalə və elmi işlərdə Bəhruzun əsərlərində təsvir etdiyi insanların taleyi açılıb ağardılmır, cırıq paltarlı dərdli körpələrin kim olduqları da seyrçiyə aydın olmurdu.Yalnız zəngin adamların istifadə etdiyi fotoqrafiyanın təzə yarandığı zamanda bu yurdsuz didərginlərin halını sənədləşdirmək çətin ki, mümkün olardı. Olsaydı da, üzlərindəki ifadəni, yaralı ürəklərini yalnız bu ağrını duyan mahir rəssam çəkib çatdıra bilərdi. Bəlkə elə Bəhruzun əsas məqsədi də və vətənə xidməti də onların ağrı-acılarını, yaşantılarını təsvir etmək idi. Ənənəvi Avropa rəssamlarından fərqli olaraq, yalnız gözəl qadınlar, incə qrasiyalar, tox və firavan insanların şəkilləri deyil, ev-eşiyini, yurdunu, doğmalarını itirmiş qaçqınlar sanki dokumental sübutlar kimi həmvətənlərinə ünvanlanıb: tariximizi unutmayaq, saxtalaşdırmayaq, milləti bu fəlakətlərə məruz qoyanları tanıyaq! Bəhruzun portretləri arasında tanınmış real şəxsiyyətlər də vardır. Professional sənətçi olaraq rəssam bir çox janrlarda işləyirdi, həm klassik, həm də ekspressiv üsluba fitrətində daşıdığı milli koloriti qataraq təkrarsız şəkillər çəkirdi.

Vətəndaş-rəssam kimi özünü təsdiq edərək, çətin bir şəraitdə yurdunun hədsiz gözəlliyini, rəngarəngliyini göstərmək, millətinin mədəniyyətini, məişətini, memarlıq abidələrini öz fırçasında ifadə etmək istəyi ilə yaşayan Bəhruz Kəngərlinin iki min əsərindən yalnız 500-ə yaxını bizə gəlib çatmışdır. Deyilənə görə, çoxunu da o özü dostlarına bağışlayır, yaxud maddi vəziyyətini yaxşılaşdırmaq üçün satmalı olurdu. Şəkil çəkmək üçün mütləq lazımi materiallar gərəkdi, kətan, kağız, qələm, boyalar əldə etmək o dövrdə elə də asan deyildi. Mütəmadi olaraq çəkmək təşnəsi ilə bir an belə boş dayanmayan Bəhruz adi daşı belə gözəl görməyi bacarırdı. Rəssamlıq ləvazimatlarını Bakı, Tiflis kimi böyük şəhərlərdə tapmaq olurdu, bu da xeyli miqdarda maddi məsrəf tələb edirdi. Əlbəttə ki, onun əsərlərinin itmə səbəbləri çoxdur.

Həmin dövrdə Qərb rəssamlıq məktəbi üslubunda çəkənlər sırasında Bəhruz Kəngərli xarakterlər ustası, zəngin milli koloritli süjetlər, akvarel və yağlı boya ilə işlənmiş maraqlı mən-

zərə təsvirləri ustası kimi fərqlənmişdir. Təbiətin fonunda qədim memarlıq abidələrini rəsmlərinə köçürərək bəzən ermənilərin xaraba qoyduqları məkanları da çəkirdi. Deyilənə görə, rəsmlərini ən çox Naxçıvana gələn qonaqlar almaq istəyirdilər.

Tədqiqatçılar, alimlər rəssamın həyat və yaradıcılığını ətraflı tədqiq etsələr də, şəxsiyyətin tanınmasında, öyrənilməsində sənədlər bədii təxəyyül qədər təsirli olmur. Yazıçı Tofiq Mahmud Bəhruz Kəngərliyə həsr etdiyi əsərini 1985-1989-cu illərdə yazıb bitirmişdir. İlk dəfə 1989-cu ildə "Azərbaycan" jurnalının 12-ci sayında "Uzaqda görünən dağlar" adı ilə dərc olunmuşdu. Sonralar 1991-ci ildə "Uzaqda ucalan dağlar" kitabı çap edilmişdi. Həmin illərdə arxivlər açılır, artıq tarixi həqiqətləri üzə çıxarmaq və onlara layiq olduqları dəyəri vermək mümkün olurdu. Gənc rəssamın həyatını, yaradıcılığını, axtarışlarını anlamaq üçün Tofiq Mahmud onun ömür yolunu addım-addım izləyərək, uzun müddət Bəhruz haqqında məlumatlar toplamışdır. 5 il ərzində Tiflisdə sənədlər əsasında rəssamın yaşadığı mədəni mühiti öyrənmiş, Naxçıvanda yaşadığı evi, çəkdiyi yerləri, məhəllələri gəzib dolaşmışdır. Sənətkar haqqında tədqiqat nümunələrindən istifadə etmiş yazıçı təbiət təsvirlərinin də reallığa uyğun olmasına diqqət yetirərək, hətta uzunömürlü ağacların təsvirini verməyə, qədim küçələrə, yerlərə "nəzər salmağa" çalışmışdır. Əsərin yazılmasında istifadə etdiyi dokumental sənədlər, xatirələr, məqalə və elmi işlər, erməni təcavüzü haqqında həqiqəti çatdıran yazılar T.Mahmuda əsrin əvvəllərində bir rəssamın ətrafında dövr edən həyatın ziddiyyətlərlə, həyəcanlarla dolu olan gerçəkliyini anlatmasına səbəb olur. O, Naxçıvanın qədim tarixi, Kəngərlilər nəsli, Tiflis mühiti haqqında məlumatlar verir, erməni hücumları zamanı didərgin düşmüş insanları təsvir edir. Bu rəsmlər Bəhruzun qaçqın portretlərindən tanış olan ac-yalavac, yurdsuz, ümidsiz uşaqlar, xarabalığa çevrilən kəndlər və obalardır.

2016-cı ildə Tofiq Mahmudun "Uzaqdan ucalan dağlar" əsərinin latın əlifbası ilə nəşrini gördüm. Əslində, bu kitab 1991-ci ildə çap edilmiş əsərin yeni variantı idi. Gənc kitabsevərlər xeyli əmək sərf edərək əsəri yenidən çap etmiş, ona öz ürək sözlərini də əlavə etmişdilər. Onlar bu sənədli romanı azərbaycanlı rəssama həsr edilmiş ilk bədii əsər kimi yuksək qiymətləndirmişdilər: "Fikrimcə, bu kitabın həyatdan süzülüb gələn daha bir özəlliyi də qeyd olunmalıdır: sanki rəssam obyekti yox, obyekt rəssamı seçir, sanki Bəhruzun vəzifəsi həqiqətləri kətana boyamaq üçün yalnız fırçanı hərəkət etdirməklə məhdudlaşır. Mahiyyətini olduğu kimi əbədiləşdirmək üçün bu şəkilləri həyat özü çəkir, Bəhruz isə onun yalan tanımayan əlidir, bir az kövrək, bir az iti, bir az dərin və bir az da kövrək əli" [2, s.6]. Gənc ədəbiyyatsevərlər Səbuhi Şahmursoyun, Cavad Qədirin, Fariz Bayramovun əsər, rəssam və müəllif haqqında kiçik yazıları, təəssüratları təkcə bununla bitmir, onlar həm də kitabı təbliğ edərək geniş oxucu dairəsində tanıtdırmağa nail olmuşlar.

Dünya ədəbiyyatı tarixində rəssamlar haqqında yazılmış bədii nümunələrə kifayət qədər rast gəlmək olar. S.Moemin "Ay və qara qəpik", İrvinq Stounun "Yaşamaq eşqi", "Əzablar və sevinclər", Lion Feyxtvangerin "Qoyya" romanları belə nümunələrdəndir. Tofiq Mahmudun "Uzaqda ucalan dağlar" əsərini ədəbiyyatımızda real rəssamın həyat və yaradıcılığına həsr edilmiş ilk və yeganə bioqrafik roman hesab etmək olar. Yazıçı istedadlı rəssam Bəhruz Kəngərlinin təkcə bədii obrazını deyil, həm də ədəbi üsulla çəkmək tərzini ifadə edir. Rəssamın gözüylə görə bilmək, vizuallığın yaratdığı görüntülərin sözlə rənglərə çevrilməsi də əsərin estetik mahiyyətini anladır, ekfrasis priyomu süjetin qurulmasında da, rəssamın yaradıcılıq tərzinin ifadəsində də əsas amilə çevrilir. Ekfrasis – yunanca ifadə tərzi deməkdir, təsviri incəsənət nümunəsinin ədəbi materialda, ədəbi üsulla verilməsidir [4]. Rəngkarlıq və ya qrafik tərzdə işlənmiş əsərlərin sözlə təsviri deməkdir. Bəzən rəsmlər haqqında təəssürat təkcə baxmaqla yox, həm də ədəbi yanaşmanın, yaxud savadlı bir şərhçinin izahından, onun həyat yolu ilə tanışlıqdan sonra aydınlaşır. Bəhruz Kəngərlinin ağır taleyi, onu rəssamlığa aparan yolların sərtliyi, o dövrdə Azərbaycan mühitində sənət aləminə qatılmanın çətinliyi, eyni zamanda fiziki zəifliyinə baxmayaraq, böyük vətənpərvərlik hissi, daxilindəki tükənməz mənəvi qüvvə və işinə sadiqliyi onu bacarıqlı bir rəssam kimi ye-

tişdirmişdir. Yalnız B.Kəngərli kimi qeyri-adi taleli, milli heysiyyətli rəssamın ömür yolu belə bir romanın yaranmasına səbəb ola bilərdi. Yazıçı rəssamın timsalında etik və estetik idealını təcəssüm etdirmişdir.

Tofiq Mahmudun rəssamlara həsr etdiyi kiçık hekayələri də vardır. Bu onun incəsənətə sevgisindən, təsviri sənət bilgisindən xəbər verir. O, rəsmləri hiss edə bilir, yaradıcılıq prosesinin əvvəli və sonu arasında əlaqəni tutmağı bacarır, rəssamın fərdi düşüncə və duyğularını görməyə çalışır. Sənət haqqında "Rəssam qadının sevgisi" hekayəsinin prototipi olan Xalq rəssamı Maral Rəhmanzadənin incə zövqlü, milli ornamentlərlə zəngin yaradıcılıq təcrübəsini güclü xarakteri ilə qovşaqda göstərməsi də bunu sübut edir.

Tofiq Mahmud yaradıcılığa şeirlə başlamışdır. Bəlkə də nəsr dilinin poetik yükü, romantik təbiəti də bu səbəbdəndir. Bəhruz Kəngərliyə ünvanlanan şeirdə həmqafiyə olan "göz" və "köz" deyimləri da antoqonist sözlərdir. "Köz" yanan substansiyanın son nəticəsidir, mətndə isə, poetik baxımdan yana-yana görən bir insanın gözlərinə bənzətmədir, olanlara laqeyd qala bilməyən, mübarizəsi reallığı çəkərək göstərmək olan ziyalı mövqeyidir:

*Qaranlığın içindən*
*Baxır mənə iki göz,*
*İki göz! Yanır köz-köz*
*Bir dəniz aşır-daşır:*
*firtınalı, ləngərli,*
*Fırtınada bir insan –*
*Rəssam Bəhruz Kəngərli!*
*Kəndlərdə yanğın, qırğın,*
*Gəlir hər yandan qaçqın,*
*qaçqınlar yığın-yığın...* [3, s.85]

Romanın müəllifi rəssam Bəhruz Kəngərlinin ömrünün ən vacib anlarını oxucu ilə bərabər izləyir. Bəzən yazıçı təbiətdən danışanda, Bəhruzun hansısa peyzajını sözlə ifadə edərək oxucusunu onun gözlərilə görməyə çağırır: "Doğma yurdunun təbiətini çəkərkən hər mənzərənin arxasında ğözü gördüyü dağlar sanki öz-özünə tabloya köçürdü. Bu barədə düşünmədən, qabaqcadan nəzərə almadan gözə görünməyən təbii duyğunun dalğasında səhər doğan günəş kimi bu dağlar onun əsərlərində peyda olurdu... Naxçıvanda onu dörd tərəfdən əhatə edən dağlar həmişə uzaqda, çox uzaqda görünür: günəşli havada da, çəndə, dumanda da, tufanda da! Həmişə görünür" [2, s.10]. Romanın adı da rəssamın müəllif "emblemini" ifadə edir: "Onun bütün əsərlərini nəzərdən keçirən olsa, əksəriyyətində Naxçıvanı dörd tərəfdən əhatə edən dağları görə bilər". "Uzaqda ucalan dağlar" həm də "ulu tarixə malik qədim şəhərin" – Naxçıvanın gözəlliyinin və əzəmətinin göstəricisidir: "...hansı tərəfə baxırsansa, bax, dağlar aydın nəzərə çarpır, bəzən uzaqlıq itir, dağlar sanki yaxına gəlir, əzəmətli qala divarları kimi dörd tərəfdən şəhəri bürüyür... Dağlar şəhərin əbədi, canlı keşikçiləri kimi dayanır...". Bəhruzun fiziki qüsuru – qulağının pis eşitməsi onun gözlə təmasının daha güclü olmasını, baxdıqlarında heç kəsin sezmədiyini görə bilməsi də bəlkə ona görədir. Başqa bir süjetdə atası Şirəlibəy Bəhruzu hündür torpaq damın üstündə dağlara tamaşa edərkən tapır: "Şirəlibəy yaşıllığın arxasında bütün açıqlığı, genişliyi və əzəməti ilə ucalan dağlara baxdı, indiyə qədər görmədiyi, duymadığı bir aləmlə qarşılaşdı. El arasında İlanlı dağ adı ilə məşhur olan Haça dağ nəhəngliyi ilə seçilirdi... – Ata, rənglərə bax." [2, s.51-52].

Əsərin kompozisiyası, əsasən, Bəhruzun Tiflisə qədərki uşaqlıq və gənclik dövrünü və peşakar rəssam kimi, Naxçıvanda çalışdığı illəri əhatə edir. Burada personajlar da portretlərdə həkk olunmuş insanlardır. T.Mahmud Bəhruzun ünsiyyətdə olduğu yaxınlarını asanlıqla təsəvvür edə bilir. Atası Şirəlibəyi, anası Şirin xanımı, Nazlını, Hürnisəni rəssamın fərdi duyğularını da qatdığı şəkilləri vasitəsilə tanımaq olur. Hürnisə ilə münasibətlərində gərginlik, Bəhruzun onu xoşbəxt etmək istəyi incə psixoloji məqamlarla anladılır. Bəhruzun qadın gözəlliyinə həssaslığı, ilk məhəbbəti, Hürnisəyə diqqətsizliyi onları ayrı salır. Ziyadxan müəllim tədqiqatında onların iki il evlilikdən sonra ayrıldıqlarını qeyd edir. Hər bir halında rəssam gözəllik aşiqi, zərif ruhlu, sakit təbiətlidir.

"Bəhruzun taleyi" albomunda 1911-ci, 1914-cü, 1920-ci illərdə çəkdiyi bir neçə avtoportretini müqayisə edən Ziyadxan müəllim "bədii güzgüdə" "gülüşü də kədərli olan", "ciddiliyi, dalğınlığı ilə" fərqlənən rəssamın sulu

boya ilə işlədiyi son portretinin "bütünlüklə nikbinlikdən uzaq olduğunu" yazır, onun milli rəssamlığımızda ilk avtoportret yaradıcısı olduğunu qeyd edir [1, s.206]. Tofiq Mahmud yaxından öyrənib tanıdığı rəssamın xarakterini belə açır: "Bəhruzun varlığında həmişə kədər yaşayırdı, bu kədərə elə öyrəşmişdi, yəqin ki, onsuz işləyə, fikirləşə, düşünə bilmirdi. Bu, adi, boş, mənasız deyildi, ətraf mühitdən, gördüyü dünyadan, insanlardan, özünün həyatla təmasından doğan, göydən, yerdən süzülən, qeybdən gələn bir kədər idi, təkcə varlığının dərinliyində qalmırdı, çox zaman zahirində – iri, dəyirmi, qarayanız sifətində də üzə çıxırdı" [2, s.285]. Müəlliflərin doğru müşahidə etdikləri kədər ümidsizlik deyildi, anasını erkən itirən, eşitmə qüsurlu Bəhruzun ruhi vəziyyəti idi. Lakin son avtoportretindən göründüyü kimi, ölkədə siyasi-ictimai vəziyyətin gərginliyi, xain ermənilərin millətinə çəkdirdiyi faciələrin qəlbində buraxdığı izlər də onun incə ruhuna təsir edirdi. 1921-ci ildə əsərlərinin satışı müqabilində uşaq evinə vəsait ayırması da pula böyük ehtiyacı olan rəssamın həmvətənlərinə az da olsa, kömək etmək niyyətindən irəli gəlir. 1922-ci ildə "Bir gün sonra, fevralın 7-də Bəhruz Kəngərli Araz dalğalarında üzə-üzə iri gözlərini həmişəlik yumdu. Bu dalğalar donub onun gözlərində qaldı" [2, s.373].

Müstəqillik illərində Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda Bəhruz Kəngərlinin xatirə muzeyi açılmış, məzarı abadlaşdırılmışdır. Daha sonra Muxtar Respublikada Bəhruz Kəngərli muzeyinin yaradılması qərara alınmışdır. 2002-ci ildə muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev də iştirak etmişdir. Bəhruz Kəngərlinin anadan olmasının 120 illiyi münasibətilə əsərlərinin tam külliyyatından ibarət albom-kataloq hazırlanmışdır.

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ziyadxan Əliyevin və Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, sənətşünas Nizami Alıyevin müəllifi olduqları "Bəhruz bəy Kəngərli taleyi" albomu cəmi 30 il yaşasa da, çox zəngin və məhsuldar ömür sürmüş, lakin o qədər də tanınmayan rəssam haqqında qiymətli tədqiqat işidir. Böyük zəhmət, axtarışlar sayəsində ərsəyə gələn albom Bəhruz bəy Kəngərlinin ömür yoluna sənədlərlə, rəsmlərlə, əyani sübutlarla işıq salaraq rəssam haqqında xalqına ətraflı məlumatlar ötürə bilmişdir. Naxçıvan elinin məşhur Kəngərli nəslinin şəcərəsi tarixi faktlarla, tədqiqat nümunələri vasitəsilə araşdırılaraq oxuculara çatdırılmışdır. Kitab-albom vasitəsilə biz Naxçıvan ədəbi-ictimai mühitini izləyə bilirik, rəssamın atası Şirəli bəyin, aydınlardan Eynəli bəy Sultanovun, Rzaqulu Nəcəfovun, Əliqulu Qəmküsarın, Bəhruzla təhsil alan rəssamların fotoşəkilləri vasitəsilə onun ünsiyyətdə olduğu adamları tanıyırıq, nə vaxtsa Bəhruz bəyin şagirdi olmuş, onun müasiri sənətşünas-rəssam Adil Qazıyevin xatirələrinə əsaslanaraq "kiçik yaşlarından yatalaq xəstəliyindən qulağının ağır eşitdiyini, ona görə də ümumtəhsil məktəbində oxuya bilmədiyini" öyrənirik. Lakin kitabın müəlliflərinin araşdırmalarına, arxiv sənədlərinə əsasən, əsl adı Şamil olan Bəhruz 1904-cü ildə Naxçıvan şəhərində açılmış "rus-tatar" məktəbində oxumuş, sonra xəstəliyi ilə əlaqədar məktəbdən çıxarılmışdır. Atası Şirəlibəy onun təhsili ilə özü məşğuldur, ona kitablar, məcmuələr alıb gətirirdi. O, Azərbaycan və rus dillərində sərbəst oxuyub yaza bilir, bu da onun rəssamlıq təhsili almasına kömək edirdi. Əsasən, anasının, qohumlarının dediyinə görə, uşaqlıq çağlarından şəkil çəkməyi sevdiyindən, hətta Şirəli bəy Tiflisdən oğlu üçün kağız-qələm sifariş edir. Bəhruz bəy Kəngərlinin Tiflisdə rəssamlıq təhsili aldığı 1910-1915-ci illər işıqlandırılır, onunla eyni vaxtda təhsil alan gənc rəssamlar haqqında da məlumat verilir. Oğlunun istedadını, rəsm çəkməyə həvəsini nəzərə alaraq, atası Şirəli bəy onu Tiflisə "Qafqaz Zərif Sənətləri Təşviq Cəmiyyəti" nəzdində fəaliyyət göstərən rəngkarlıq və heykəltaraşlıq məktəbinə göndərir. Cəlil Məmmədquluzadənin nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalının rəssamı milliyyətcə alman olan rəssam, qrafika ustası Oskar Şmerlinq bu məktəbin direktoru idi. Q.Qrinevski, italyan rəssamı L.Lonqo da həmin məktəbin müəllimləri sayılırdılar. Kitabda milliyyətcə polyak olan qrafika müəllimi Q.Qrinevskinin maraqlı akvarel rəsmləri çəkmiş B.Kəngərlinin müəllimi olduğu da istisna edilmir. Albomun müəllifləri Ziyadxan Əliyev və və Nizami Alıyev rəssamın təhsil illəri haqqnda bütün məlumatları tutuşduraraq ən

düzgün olanını – rəssamın 1910-1917-ci illərdə təhsil aldığı qənaətinə gəlirlər. Azərbaycan SSR Elmlər Akademiyasının "Xəbərlər"ində (1949, №5) M.Nəcəfovla Adil Qazıyevin birlikdə yazdığı "Naxçıvanlı rəssam Bəhruz Kəngərlinin yaradıcılığına dair" məqaləsi Adil Qazıyevin (1906-1972) "Qobustan" jurnalında çap etdirdiyi "Xatirə dəftərindən" məqaləsi rəssam haqqında məlum olanları bildirir. Adil Qazıyev xatirələrində yazır: "Bəhruz Kəngərli Tiflisdə təhsil aldığı 1910-1915-ci illərdə E.Sultanovun vasitəsilə "Molla Nəsrəddin" jurnalının redaktora Mirzə Cəlillə tanış olmuşdur" [1, s.35].

Ensiklopediya-albomun maraqlı cəhətlərindən biri də rəssamın portretini çəkdiyi bəzi tarixi şəxsiyyətlərin fotoşəkillərinin də verilməsidir. Bu bizə rəssamın çəkdiyi prototiplərin xarakter cizgilərini ifadə etməsi, geyim və ifadə baxımından portret yaradıcılığındakı ustalığını, bəsirət gücünü anladır. Müəlliflər obyektivliklə Azərbaycan rəssamlıq tarixində Bəhruz Kəngərlidən başqa, İbrahim Səfinin (1898-1983), Qeysər Kaşıyeva Seyidbəylinin (1893-1972), Moskvada K.Maleviçin tələbəsi Əkbər Kazımbəyovun (Əkbər Kazım Muğan) (1864-1972) professional təhsil almış olduqlarını, lakin Türkiyəyə getdiklərini, Qeysər xanımın isə təhsilini ailə qurması səbəbilə davam etdirmədiyini, lakin çəkdiyi rəsmlərin Azərbaycan İncəsənət Muzeyində saxlanılmaqda olduğunu qeyd edir. "Bəhruz bəy Kəngərlinin taleyi" kitabında rəssamın irsi, şəkillərinin çəkildiyi yerlər, şərait ətraflı təsvir olunur, sərgiləri haqqında məlumat verilir. Onun əsərlərinin böyük bir qismi – 450 əsəri Azərbaycan Milli İncəsənət Müzeyində saxlanılır. 51 səhifədən ibarət olan "Azərbaycan tipləri, Naxçıvan yadigarı" adlı albomda müxtəlif mövzulu əsərləri vardır. Kitabda nə vaxtsa rəssamın özünün və ailəsinin onun şəkillərindən ibarət "Naxçıvan albomu" hazırladığını, maddi ehtiyaclarını ödəmək üçün onları şəhərə gələn qonaqlara və yerli camaata satdığı deyilir. Naxçıvandakı Bəhruz Kəngərli Muzeyinin daimi ekspozisiyasında isə görkəmli rəssamın 58 orijinal əsəri nümayiş etdirilir. Naxçıvan Tarix Muzeyinin fondunda qeydiyyata alınmış "Elçilik" əsəri də yoxa çıxmışdır. "Deyilənə görə, cəmi 30 il ömür sürən rəssam bütün yaradıcılığı boyu iki minə qədər əsər çəkmişdir. İndiki halda onun yalnız dörddən biri, 510 ədədi muzeylər tərəfindən alınıb qorunduğu halda, 1490 əsərin taleyi hələ naməlum olaraq qalır" [1, s.71]. 1914-cü il, iyun ayının 14-də Bəhruz Kəngərlinin tələbə olarkən Naxçıvan şəhərində ilk fərdi satış sərgisi təşkil edilmişdi. Bu barədə "İqbal", "Kaspi", "Tərcüman " qəzetləri xəbər verirdi. Qəzetlərin yazdığına görə, bu sərgidə şəkillərin çoxu satın alınmışdı. 1921-ci ildə Naxçıvan İnqilab Komitəsinin təşəbbüsü ilə Bəhruz bəy Kəngərlinin 500-ə qədər əsərinin böyük sərgisi təşkil edilir və onlardan 250 əsəri rəssamın razılığı ilə lotoreya biletinin uduşu üçün, 250 ədədi isə sərbəst satış üçün nəzərdə tutulmuşdu. Uduşa qoyulan bütün əsərlər Naxçıvan və İrəvan şəhərinin vətəndaşları tərəfindən alınmışdır, qalan 250 əsərin satılması haqqında isə məlumat yoxdur. Əsərlərin satışından əldə edilən gəlirin üçdə bir hissəsi Naxçıvan Uşaq evinə bağışlansa da, rəssama çatacaq hissə sərgini təşkil edənlər tərəfindən mənimsənilmişdi. Bu barədə rəssamın yazdığı diləkçədə bildirilmişdır. Bəhruz savadlı və səliqəli xətlə yazılmış məktubda mənimsənilmə faktı ilə əlaqədar şikayətini bildirir, ona çatacaq məbləği götürüb Bakıya gedən adamdan haqqının alınmasını xahiş edir, maddi vəziyyətinin ağır olduğunu anladır. Bu cür hadisələr, yaradıcılığını qiymətləndirə bilməyənlərin etinasızlığı və laqeydliyi çətinliklə dolanışığını təmin edən rəssamı üzür, mənəvi gücünü alırdı.

## Nəticə / *Conclusion*

"Azərbaycan xalqının ilk professional rəssamı" Bəhruz Kəngərlinin (Heydər Əliyev) mənalı, lakin qısa ömür yoluna işıq salan kitablar mədəniyyətimizi, tariximizi, ədəbiyyatımızı daha dərindən öyrənməyə, öyrətməyə, qiymətləndirməyə təşviq edir.

**Ədəbiyyat / *References***


1. T.Mahmud. Uzaqda ucalan daglar. Bakı: Elm və təhsil, 2016.
2. T.Mahmud. Məhəbbətim sirr deyil. Bakı: Yazıçı, 1981.
3. Z.Əliyev, N.Əliyev. Bəhruz bəy Kəngərli taleyi. Naxçıvan, 1917.
4. https: //dic.academie.ru


## Бахруз Кенгерли как личность и художественный образ


**Ядигар Аскерова**
доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан
E-mail: yadigar2012@gmail.com



**Резюме.** Статья посвящена первому профессиональному художнику Бахрузу Кенгерли, открывшему новые шаги в изобразительном искусстве Азербайджана, в научной и художественной литературе. «Горы, возвышающиеся вдали» Тофига Махмуда (1989) – первый и единственный биографический роман, посвященный жизни и творчеству художника. В то время, когда были открыты архивы и вскрылись исторические истины, Тофиг Махмуд представил близкий к реальности художественный образ Бахруза Кенгерли, ссылаясь на документы, мемуары, статьи и научные труды, статьи об армянской агрессии. В книге-альбоме «Судьба Бахруза Кенгерли» (2017 г.) под авторством заслуженного деятеля искусств, доктора философии по искусствоведению Зиядхана Алиева и преподавателя Нахчыванского педагогического института Низами Алиева на основе научных исследований, документов и воспоминаний составлен каталог всех работ, написанных художником. Альбом, созданный благодаря большим усилиям и поискам, смог донести до народа подробную информацию о художнике, описывая жизнь Бахруз бека Кенгерли документами, рисунками и наглядными свидетельствами.



**Ключевые слова:** Бахруз Кенгерли, художник, Нахчыван, беженцы, образ